# Böyük alim, akademik Cəlal Əliyevin əziz xatirəsi anılıb



**Dünya şöhrətli seleksiyaçı alim, ictimai-siyasi xadim, ölkəmizdə biologiya və aqrar elminin görkəmli nümayəndəsi, Əməkdar Elm Xadimi, Azərbaycanın ali dövlət mükafatlarına - "İstiqlal" və "Şərəf" ordenlərinə, Azərbaycan Respublikası Prezidentinin "Fəxri diplomu"na layiq görülmüş akademik Cəlal Əliyevin anadan olmasının 88-ci ildönümüdür.**

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabana gələrək Azərbaycan elminin inkişafında müstəsna xidmətləri olan dünya şöhrətli alim, akademik Cəlal Əliyevin məzarını ziyarət edib, əziz xatirəsini ehtiramla anıblar.

Tanınmış elm xadimlərinin, alimin ailə üzvlərinin, tələbələrinin iştirak etdikləri tədbirdə ekologiya və təbii sərvətlər nazirinin müavini Novruz Quliyev akademik Cəlal Əliyevin elmi nailiyyətlərindən, Azərbaycanda biologiya elminin inkişafında onun əvəzsiz xidmətlərindən danışıb. O, alimin əməyinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini, akademik Cəlal Əliyevin bir sıra ali dövlət mükafatlarına layiq görüldüyünü diqqətə çatdırıb.

Digər çıxış edənlər bildiriblər ki, Azərbaycanda biologiya elminin yeni istiqamətlərinin yaradılmasında mühüm xidmətləri olan Cəlal Əliyevin uğurlu elmi fəaliyyətinin mühüm hissəsi ölkəmizdə taxılçılığın inkişafına yönəlib. Onun fotosintezin tədqiqi sahəsində yaratdığı məktəbin əldə etdiyi misilsiz nailiyyətlər dünya elmi ictimaiyyəti tərəfindən çox yüksək dəyərləndirilib. Böyük alimin dərin nəzəri bilikləri, innovativ ideyaları, gərgin əməyi yeni intensiv tipli taxıl sortlarının yaradılması ilə nəticələnib. Alimin fotosintezlə bağlı əldə etdiyi elmi nəticələr dünyanın bir çox ölkələrində uğurla tətbiq olunur.

Vurğulanıb ki, elmi kadrların hazırlanmasında akademik Cəlal Əliyevin əvəzsiz xidmətləri olub. Hazırda görkəmli alimin yetirmələri dünyanın bir sıra ölkələrində qabaqcıl elm mərkəzlərində fəaliyyət göstərirlər.

Akademik Cəlal Əliyevin gərgin əməyi, beynəlxalq elmi əlaqələrin inkişafındakı xidmətləri digər ölkələrin də ali mükafatları ilə dəyərləndirilib.

AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova dünya şöhrətli seleksiyaçı alim Cəlal Əliyevin təcrübəsini daim alim və mütəxəssislərlə bölüşdüyünü bildirib, bütün elmi konfrans və seminarlarda bu təcrübədən istifadə olunduğunu diqqətə çatdırıb.

Tədbirdə vurğulanıb ki, olduqca mənalı və şərəfli ömür yolu keçmiş, elmə çox dəyərli töhfələr vermiş akademik Cəlal Əliyevin əziz xatirəsi ürəklərdə yaşayacaq, Azərbaycan xalqı görkəmli övladının xatirəsini daim uca tutacaq.

**AZƏRTAC**